# 2020-ci ilin avqust ayının nəticələri - Vətəndaş müraciətləri

Cari ilin avqust ayında **elektrik enerjisi, qaz təchizatı, istilik təchizatı** və **digər sahələr üzrə istehlakçı hüquqlarının qorunması ilə bağlı** Enerji Məsələlərini Tənzimləmə Agentliyinə birbaşa və Energetika Nazirliyi vasitəsilə ümumilikdə **325 müraciət** daxil olub. Bu müraciətlərin 260-ı elektrik enerjisi, 55-i təbii qaz təchizatı, 2-si istilik təchizatı, 8-i isə digər məzmunlu məsələlərlə bağlı olub.

Ümumilikdə, daxil olan 325 müraciətin 4-ü Energetika Nazirliyi ilə müştərək icra olunub, 21 məlumat xarakterli müraciətdən 9-u qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub. 178 müraciət hazırda icra olunmaqdadır, 126 müraciət isə Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən araşdırılaraq cavablandırılıb. 3 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti quruma göndərilib.